# MÜNDƏRİCAT


Təşəkkürlər ........ 7

Giriş ........ 9

1. Nikbin Əqli Düşüncə (NƏD) sizin üçün nə edir? ........ 11

2. Birinci şərt: Əqidənizlə ağlınıza sahib çıxın ........ 25

3. İkinci şərt: Diqqətinizi nail olmaq istədiyiniz məqsədlər üzərində cəmləşdirin, istəmədiyiniz şeylər haqqında düşünməyin ........ 35

4. Üçüncü şərt: Qızıl qaydaya əməl edin ........ 49

5. Dördüncü şərt: Özünütəhlil üsulu ilə bütün mənfi fikirləri aradan qaldırın ........ 59

6. Beşinci şərt: Özünüz xoşbəxt olun! Başqalarını da xoşbəxt edin! ........ 69

7. Altıncı şərt: Özünüzdə dözümlülük vərdişi formalaşdırın ........ 79

8. Yeddinci şərt: Müsbət ideyalar irəli sürün .................. 89

9. Səkkizinci şərt: Duanın gücündən
istifadə edin ........................................................................ 99

10. Doqquzuncu şərt: Qarşınıza məqsəd
qoyun ..........................................................................111

11. Onuncu şərt: Hər gün mütaliə edin, düşünün
və görəcəyiniz işləri planlaşdırın .............................. 121

12. Hər gün Nikbin Əqli Düşüncəni
tətbiq edən şəxs .......................................................... 131

13. İndi nə etməyə hazırlaşırsınız? ................................ 163

Tövsiyə olunan ədəbiyyat siyahısı .......................... 165

# TƏŞƏKKÜRLƏR

İsaak Nyuton ingilis alimi Robert Huka məktubunda yazmışdı: "Mən Huk və Deskartesdən daha irəli gedə bilmişəmsə, buna dahi şəxsiyyətlərin təcrübələrindən istifadə etməklə nail olmuşam". Mən də sizə eyni fikri söyləyirəm. Həyatınızı dəyişə biləcək prinsip və təcrübələr haqqında danışa bilirəmsə, bunun səbəbi həyatımın dahilər tərəfindən dəyişdirilməsi idi, bu dahi şəxslər mənə dünyaya onların gözü ilə baxmaq imkanı vermişlər.

İlk növbədə, tibb üzrə fəlsəfə doktoru, psixoloq və filosof Vilyam Ceymsin adını çəkmək istərdim. Onunla şəxsən tanış deyildim, lakin Nikbin Əqli Düşüncə üçün güclü nəzəri əsası məhz o təqdim edib. Ondan sonra uğurun sirlərini araşdıran görkəmli şəxs Napoleon Hillin adını çəkmək istərdim. O, Nikbin Əqli Düşüncənin prinsiplərini qiymətləndirən ilk şəxs olmuş və aşkara çıxardığı prinsipləri öz əsərlərində əks etdirmişdi. Napoleon Hill ilə tanış idim, onunla iyirmi ilə yaxın müddətdə bir yerdə işləmişəm. Son olaraq, dahilər dahisi V. Klement Stouna başqalarını yorulmadan özünün çox uğurla təcrübədə tətbiq etdiyi – Nikbin Əqli Düşüncənin heyrətamiz gücünü öyrətməyə çalışdığı üçün borclu olduğumu bildirmək istəyərdim.

– Maykl C. Ritt

# Giriş

Bu balaca kitab vasitəsilə həyatınızı dəyişə bilərsiniz. Bu kitab həyatda uğur əldə etmək üçün lazım olan prinsipləri özündə ehtiva edir: NƏD – Nikbin Əqli Düşüncə. Bu ardıcıl bələdçidə sadə və aydın dildə qeyd olunan təsdiqlənmiş prinsiplərə əməl edərək arzularınızı gerçəkləşdirə və Nikbin Əqli Düşüncəyə nail ola bilərsiniz.

## Vəd edilmiş Məkanın mənzərəsi

"İncil"də Tanrının Musanı ömrünün sonuna yaxın Nebo dağının zirvəsinə aparıb israillilərə məxsus torpaqları peyğəmbərə göstərdiyi deyilir. Bu səyahətə başlamazdan əvvəl siz də öz həyatınıza cavabdeh olmaq üçün gedəcəyiniz istiqaməti bilməyə layiqsiniz. Əvvəlki yaşayış tərzinin sonuna yaxınlaşırsınız, tezliklə yeni bir başlanğıca qədəm qoyacaqsınız. Bu andan etibarən, dünyaya qarşı yönəlmiş köhnə, gücünüzü tükədən mənfi baxış tərzindən imtina edəcək, onu Nikbin Əqli Düşüncə vasitəsilə yaranan qarşısıalınmaz canlandırıcı həyatla əvəzləyəcəksiniz. Bu ümid hissinin – Nikbin Əqli Düşüncənin sizin üçün nə edəcəyini qəlbinizdə saxlayın. Bu gündən etibarən təsəvvür edin:

- Tanrı tərəfindən verilən yaradıcı bir gücə sahib olduğunuzu anlayacaqsınız.
- Duyğularınız üzərində nəzarəti onun yaradıcı gücünü daima özünüz üçün müsbət istiqamətə yönəldə biləcək şəkildə inkişaf etdirə biləcəksiniz.
- Keçmiş təcrübələrinizə qarşı səmərəsiz münasibətiniz nəticəsində yaranan bütün mənfi düşüncələrinizi aradan qaldıracaqsınız.
- Qorxularınızın yaradıcı gücünüz üzərindəki dağıdıcı təsirini anlayaraq, onların öhdəsindən gələcəksiniz.
- Ancaq başınıza gələn yaxşı hadisələri təsəvvür edəcəksiniz, beləliklə, bu yaradıcı güc yalnız müsbət və nikbin çərçivədə ifadə edilmiş olacaq.
- Keçmişdəki uğursuzluqlarınız, faciələriniz və onların həyatınızda yenidən təkrarlanması barədə düşünməyi dayandıracaqsınız.
- Ən güclü hisslərinizi və arzularınızı həyatda, həqiqətən, istədiyiniz fəaliyyətlərə doğru istiqamətləndirəcəksiniz.
- Siz heç zaman bilərəkdən Nikbin Əqli Düşüncənin yaradıcı gücündən pis məqsədlər üçün istifadə etməyəcəksiniz, çünki ondan yanlış istifadənin sizi və dəyər verdiyiniz hər şeyi məhv edə biləcəyindən xəbərdarsınız.

Bu gündən etibarən bu üstünlüklərə (insan kimi doğum hüququnuz) nail olmaq məqsədi daşıyacaqsınız. Sizi heç nə saxlaya bilməz, bu zaman ancaq məqsədlərinizi gerçəkləşdirəcək mənbə kimi öz öhdəliyinizə ehtiyacınız olacaq.

# 1

# Nikbin Əqli Düşüncə (NƏD) Sizin üçün Nə Edir?

Nikbin Əqli Düşüncə sizdə ümid hissi yaradaraq ümidsizlik və ruhdan düşmə hissinin aradan qaldırılmasına imkan verir. Nikbin Əqli Düşüncəni inkişaf etdirərək, ona sahib olaraq psixi vəziyyətinizin digər insanlara qarşı münasibətlərinizdə faydalı, sağlam, məhsuldar olduğunu və müəyyən addım atarkən həyatda istədiyiniz hər hansı əhəmiyyətli məsələlərə nail ola biləcəyinizi aşkar edəcəksiniz. Nikbin Əqli Düşüncənin "Mən bacararam – Öhdəsindən gələrəm" fəlsəfəsi adlandırılması qətiyyən təəccüblü deyil.

Nikbin Əqli Düşüncəyə sahib olduqda siz özünüzü xoşbəxt hiss edir, ətrafınızdakı insanlardan məmnun qalırsınız. Sizdə özünüzə hörmətin və xoş hisslərin yaranmasına imkan verəcək daxili əhval-ruhiyyəyə, nura və daxili hissə sahib olacaqsınız. Xoş niyyəti və halları cəlb edəcək, mənfi halları isə özünüzdən uzaq tutacaqsınız.

Nikbin Əqli Düşüncəyə nail olduqdan sonra onun təsirləri özünü avtomatik olaraq göstərir. Nikbin Əqli Düşüncə davamlı surətdə onu tətbiqetmə prosesi tələb edir. Bu, rahatlığınız üçün istifadə edəcəyiniz bir şey deyil, həyat tərzinizin vacib hissəsidir. Daimi nümayiş etdirməyiniz üçün

Nikbin Əqli Düşüncə vərdişə çevrilməli, mənimsənilməlidir. Köynəyin düyməsini və ya ayaqqabının iplərini necə bağladığınızın fərqinə varmadığınız kimi, Nikbin Əqli Düşüncənin də gündəlik tətbiqini məşq edə bilərsiniz. Bu, nəfəs almaq kimi təbii olmalıdır, belə də olur. Bir zamanlar Nyu-York ştatının şimal hissəsində bir yol nişanında qeyd edildiyi kimi: "Yolunuzu diqqətlə seçin: on mildən sonra çatacaqsınız".

### Uğur Ardınca Uğur Gətirir

Vaxtınızı daha çox kiminlə keçirmək istəyərdiniz?

1. Bədbin, şübhəli, kədərli və həmişə səmadakı yeganə buludun qasırğa əlaməti olduğuna əmin olan birisi iləmi?
2. Nikbin, özünəinamlı, ünsiyyətcil, həmişə məsələləri həll etmək, həll yolu tapmaq və gəliri yüksək dərəcədə artırmaq iqtidarında olan birisi iləmi?

Nikbin Əqli Düşüncənin nə üçün sizə dostluq və əməkdaşlıq qazandırmağa, istənilən çətinliyin öhdəsindən gəlməyə və çətinlikləri fürsətə çevirməyə imkan verdiyini görə bilərsiniz.

Hər birimizi vərdişlərimiz idarə edir. Vərdişlərinizin və onların təsirlərinin müsbət və ya mənfi olması öz seçimlərinizdən asılıdır. Mənfi fikirlərin ağlınıza hökmranlıq etməsinin qarşısını ala bilərsiniz. Mənfi fikirlər və ani istəklər yarandığı anda onları müsbət əvəzləyiciləri ilə əvəzləmək barədə şüurlu surətdə qərar qəbul edə bilərsiniz. Daha ayıq-sayıq olmağınız, təxəyyülünüzün daha fəal olması, ruh yüksəkliyinizin artması və iradənizin güclən-

məsi üçün müsbət vərdişlər avtomatik olaraq ağlınıza təsir edəcək.

Maqnit parçası dəmir halqaları özünə doğru çəkdiyi kimi, Nikbin Əqli Düşüncə də müsbət cəhətləri özünə çəkir. Nikbin Əqli Düşüncə insanları, uğuru və zənginliyi sizə tərəf çəkəcək. Nikbin baxışa müqavimət göstərmək mümkün deyil. Nikbin Əqli Düşüncə sizi şübhələrdən və ümidsizlikdən qoruyur. Şübhəsiz, hər birimiz həyatda çətinliklərlə qarşılaşırıq, lakin həyatınızda çətinliklərlə üzləşəndə o sizi ümidsizlikdən və vəziyyətin təzyiqi altında qalmaqdan qorumuş olacaq. Əslində, Nikbin Əqli Düşüncə istənilən vəziyyəti daha aydın görməyinizə imkan verir, bu səbəbdən onu öyrənərək və öyrəndiklərinizdən öz xeyrinizə istifadə edərək çətinlikləri gözlənilən uğura çevirə bilərsiniz.

Nikbin Əqli Düşüncə hisslərinizdən qaynaqlanan istənilən bir həvəsləndirməyə qarşı düzgün əqli cavabdır. Nikbin Əqli Düşüncəyə yiyələndiyiniz təqdirdə hər bir şəxs və ya şərait haqqında düzgün düşünə, davrana və reaksiya verə bilərsiniz. Sizin ağlınız və həyatınız məqsədəuyğun hesab etdiyinizi həyata keçirmək üçün öz ixtiyarınızdadır.

Nikbin Əqli Düşüncə sizə konstruktiv düşünməyi və davranmağı öyrədir. Siz Nikbin Əqli Düşüncədən istəklərinizi və arzularınızı gerçəkləşdirmək üçün istifadə edə bilərsiniz. Əlinizdə olanlarla ən yüksək nəticəyə nail olmağa çalışarkən imkandan istifadə etməyi öyrənirsiniz, digərləri bu zaman yalnız çətinliyi görür. Siz dahi britaniyalı Baş nazir Benjamin Dizraelinin fəlsəfəsini təcrübədə tətbiq edə bilərsiniz: “Biz şəraitdən asılı deyilik, şəraiti yaradan şəxslərik”.